# Ulu öndər Heydər Əliyev müasir Azərbaycan təhsilinin banisidir



**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev bütün sahələrdə olduğu kimi, təhsil işinə də nüfuzlu təsirini göstərmişdir. Ulu Öndər təhsilə həmişə xüsusi əhəmiyyət verərək deyirdi: "Təhsil sahəsi həyatımızın ən gərəkli, ən nüfuzlu sahəsidir, o, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır".**

Əslində bu söz müasir Avropanın təhsil haqqında düşüncələrinin bütün mənalarını özündə əks etdirir. Ümummilli Lider "Təhsil həyatımızın gərəkli sahəsidir" deyərkən bu işin nə qədər aktual olduğunu milli mənafeyə nə qədər əhəmiyyətli olduğunu cox dəqiq ifadə edirdi. "Təhsil, millətin mənafeləri əsasında qurulmalıdır" deyərkən təhsil işinin millətin həm mənəvi, həm də iqtisadi ehtiyacları üçün böyük əhəmiyyət kəsb etdiyini söyləyirdi. Buna görə də Azərbaycan ikinci dəfə öz müstəqilliyini elan etdikdən az sonra ulu öndər Heydər Əliyev yeni imkanlar qazandı və yuxarıda söylədiyi tezisləri həyata tətbiq etməyə başladı. 1999-cu ildə ölkədə təhsil islahatlarına rəvac verildi. Mərhələli şəkildə aparılan bu islahatlar konkret məqsədlərə xidmət edirdi. 10 il ərzində ümumi təhsilin yeni konsepsiyası işləndi. Bu konsepsiya dövrün , zamanın tələblərinə tam uyğun idi. Onun əsasında müasir dünya təhsilinin təcrübəsi dayanırdı. Bu konsepsiya yeni təfəkkürün formalaşdırılması məqsədini güdürdü. Fənn kurikulumlarının yaranması, məzmun standartlarının formalaşması, təhsilin məzmununun yeniləşdirilməsi və s. kimi amillər təhsil işimizə yeni ab-hava gətirdi, onun yeni simasını müəyyənləşdirdi. Bu, Azərbaycan təhsilinin tarixində yeni hadisə idi və Heydər Əliyev dühasının yeni nailiyyətlərindən biri kimi diqqəti cəlb edir.

Məzmun sahəsində aparılan islahatlar təhsil işçilərini qlobal fəaliyyətə təhrik etdi. İbtidai və orta məktəb şagirdləri üçün yeni tipli dərsliklərin yaranması təhsildə gedən məzmun islahatlarının mühüm göstəricilərindən biri oldu. Bu islahatlarda təkcə Azərbaycan Respublikası Təhsil Nazirliyinin deyil, ölkənin bütün ziyalılarını bir məqsəd ətrafında birləşdirdi. Bu birliyi yaradan Heydər Əliyev dühası idi.

1993-cü ilə kimi sökülüb-dağılmaqda olan təhsil sisteminin yenidən formalaşdırılması məhz dahi lider Heydər Əliyevin öhdəsinə düşmüşdü. Dağılan bir ölkənin bütün əzaları, o cümlədən, təhsil sisteminin formalaşdırılması işi bu dahi insanın qarşısında bir məqsəd kimi dayandı. Əgər Ulu Öndərimiz hakimiyyətə bir qədər gec gəlsəydi Azərbaycan təhsil sistemi dağılacaq və uzun müddət bərpa oluna bilməyəcəkdi. Ölkənin ən qabiliyyətli elm və təhsil adamları dolanışıq dalınca xarici ölkələrə axışmağa başlamışdı. Onlar Rusiyaya, Türkiyəyə, İrana və dünyanın digər ölkələrinə üz tuturdular. Bu acınacaqlı vəziyyətdən ölkəni xilas edən 1993-cü ildə xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyev oldu. O, əvvəlcə ölkədə sabitlik yaratdı. Düşmənlə atəşkəsə nail oldu. Ölkə iqtisadiyyatının möhkəmləndirilməsi üçün mühüm addımlar atıldı.

Ulu öndər Heydər Əliyevin möhkəm iradəsi və səyi nəticəsində 1995-ci ildə ölkədə siyasi sabitlik tam bərqərar oldu. Ümummilli Lider dərk edirdi ki, dünyada gedən proseslər Azərbaycanda da təhsil sahəsində islahatlar aparılmasının zəruriliyini ortaya qoyur. İntellektə əsaslanan dünya təhsili ilə ayaqlaşmaq üçün yeni istiqamətli təhsil sistemi yaratmaq lazımdır.

1998-ci ilin martında ulu öndər Heydər Əliyevin imzaladığı Sərəncamla islahat komitəsi yaradıldı və onun vəzifələri təhsil siyasətini həyata keçirən Azərbaycan Respublikası Təhsil Nazirliyinə həvalə edildi. İslahatları vaxtında və yüksək səviyyədə həyata keçirmək üçün Dünya Bankının Bakı Ofisi ilə əlaqə yaradıldı. Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq "Təhsil İslahatı Proqramı"nın yaradılmasına başlandı və müzakirələrin çoxunda ulu öndər Heydər Əliyevin özü şəxsən iştirak etdi. 1999-cu ilin iyunun 15-də həmin proqram Prezident tərəfindən təsdiq olundu.

Müstəqilliyimizin ilk illərində özəl ali məktəblərin fəaliyyətə başlaması da təhsil işində yeni bir istiqamət kimi diqqəti cəlb edir. İlk illərdə həddindən artıq özəl universitetlər, orta məktəblər, kolleclər açıldı. Özəl ali məktəblərin fəaliyyətini tənzimləmək işi Təhsil Nazirliyinə həvalə edildi. Qısa vaxt ərzində bu sahədə stabillik yaradıldı. İndi dünya standartlarına cavab verən "ADA", Xəzər , Qərb universitetləri kimi ali təhsil ocaqlarımız fəaliyyət göstərir. Bunlar Heydər Əliyev zəkasının məhsulu kimi dəyərləndirilməlidir.

2005-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi rəsmi olaraq Bolonya proseslərinə qoşuldu. Bolonya Bəyannaməsinin tələblərinə uyğun olaraq ali məktəblərdə islahatlar aparılmasına başlanıldı. Onların dünya ilə əlaqələri genişləndirildi, maddi texniki bazaları möhkəmləndirildi.

Ulu Öndərimizin təhsil sahəsində apardığı işlər bu gün də öz bəhrəsini verməkdədir. İndi respublikamızda 50-yə yaxın dövlət və özəl ali məktəblər fəaliyyət göstərir.

Ulu Öndər hələ sovet dönəmində ölkəyə rəhbərlik etdiyi vaxtlarda gənclərimizin xaricdə təhsil almasına xüsusi əhəmiyyət verirdi. Bu, uzaqgörən bir siyasət idi. Xaricdə təhsil alan hər bir gənc ölkəyə özü ilə yeni ideyalar, inkişafa təkan verən yeni bir ruh gətirirdi.

Həmin ənənə müstəqillik illərində daha geniş miqyasda həyata keçirildi. Heydər Əliyevin şəxsi təşəbbüsü ilə bu işlər müasir Avropanın tələb etdiyi zirvəyə qaldırıldı. İndi Azərbaycan gənclərinin dünyanın müxtəlif universitetlərində təhsil alması üzrə Dövlət Proqramı fəaliyyət göstərir. Ölkədən kənarda bu gün beş minə yaxın gənc təhsil alır. Onlar Amerikanın Harvard, Kolumbiya universitetlərində, Böyük Britaniyanın, Almaniyanın, Fransanın, Yaponiyanın və digər ölkələrin universitetlərində təhsil alırlar . Bu, Azərbaycanın böyük nailiyyətlərindən biridir və onun müəllifi ulu öndər Heydər Əliyevdir.

Azərbaycan təhsil sistemində gedən ən böyük islahatlardan biri dərslik islahatı idi. Hələ 1997-ci ildə AMEA-da görüşü zamanı dahi rəhbər Heydər Əliyev belə bir fikir söyləmişdi: "Azərbaycanın XIX-XX əsrlər tarixi yazılmalıdır" Bu, Ulu Öndərin dərslik müəlliflərinə bir tapşırığı kimi də qiymətləndirilə bilər. Həmin tapşırığı yerinə yetirmək üçün Təhsil Nazirliyi tarixçi alimləri və təcrübəli müəllimləri bir araya gətirdi. Müstəqil dövlətçilik prinsiplərinə cavab verən belə bir dərsliyin yaranmasına rəvac verdi. Həmçinin "Qədim dünya tarixi", "Orta əsrlər tarixi" "Yeni tarix" kitabları da yenidən yazıldı. Bu kitablarda dünya tarixi, xüsusən türk-islam dünyası xalqlarının tarixi dövlətçilik prinsipləri əsasında işıqlandırıldı. Dərslik islahatının ikinci mühüm mərhələsi yeni tipli dərsliklərin yaranması idi. Azərbaycan Respublikasının Prezidentinin dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında 18 iyun 2001-ci il tarixli Fərmanından irəli gələn vəzifələrə uyğun olaraq "Azərbaycan dili" və "Ədəbiyyat" dərsliklərinin yenidən yazılması zərurəti meydana çıxdı. Dərsliklərin yaranması ilə əlaqədar olaraq onların proqramının tərtib edilməsi zərurəti yarandı. Dil və ədəbiyyat müəllimləri, görkəmli alimlər səfərbərliyə alındı və beləliklə, yeni tipli dərsliklərimiz yazıldı.

Ümummilli lider Heydər Əliyevin ciddi nəzarəti altında Azərbaycan Respublikasının təhsil siyasəti həyata keçirilməyə başladı və tezliklə öz uğurlarını göstərdi. 2003-cü ildən başlayaraq V-XI sinif dərslikləri dövlət vəsaiti hesabına nəşr olundu. Azərbaycan Respublikasının Prezidentinin 2003-cü il 20 fevral tarixli fərmanı ilə təsdiq edilmiş "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı Nazirlər Kabineti tərəfindən bir sıra sərəncamlar verildi. Bütün bunlar Azərbaycan təhsilinin inkişafına təsir edən amillər idi.

2003-2008-ci illərdə otuz milyon dərslik çap olundu. 2005-ci ildə isə bütün şagirdlər pulsuz dərsliklə təmin olundu ki, bu da MDB məkanında ilk dəfə Azərbaycanda baş verdi.

Ulu Öndərimiz tərəfindən əsası qoyulan siyasi və iqtisadi kurs bu gün də yenidən Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyev və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev dövrün siyasi istiqamətini düzgün müəyyənləşdirərək neftdən və qazdan əldə olunan kapitalı insan kapitalına çevirməyi qarşıya bir məqsəd kimi qoyur. O yazır: "Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir".

Son illər ölkəmizin iqtisadiyyatında baş vermiş sürətli inkişaf Azərbaycan təhsilinin inkişafı üçün də əlverişli zəmin yaradır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci ildə yenidən prezident seçildikdən sonra andiçmə mərasimindəki çıxışında təhsil problemlərinə də toxundu. Qeyd etdi ki, xalqın gələcək inkişafı təhsil işimizin ümumi vəziyyəti ilə çox bağlıdır. Biz təhsilimizin daha da inkişaf etdirilməsi qayğısına qalacaq, gəncliyimizin yüksək intellektə sahib olması üçün hər bir tədbiri görəcəyik.

İnanırıq ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə başlanan Azərbaycan təhsil sisteminin inkişafı onun davamçıları tərəfindən daha yüksək zirvələrə qaldırılacaqdır. Bu gün Azərbaycanın təhsil sistemində gedən uğurlu islahatlar bunu parlaq şəkildə göstərir. Bu, Heydər Əliyev zəkasının və onun uzaqgörən siyasətinin nəticəsidir.

**Zahid Xəlil,**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ədəbiyyat və onun tədrisi metodikası kafedrasının müdiri